

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 36 (21.188)

21 fevral 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ötən il əhalinin sosial müdafiəsi daha da gücləndirilib



*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində kollegiya iclası keçirilib. İclası nazir Cavid Səfərov açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, ötən il ərzində 298 sahibkarlıq obyektində 242 halda yeni əmək müqaviləsinin bağlanılmasına, 514 halda isə əməkhaqlarının real göstərilməsinə nail olunub. Eyni zamanda əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl olunmasına nəzarət zamanı fərdi və kollektiv mühafizə vasitələrindən istifadə edilməməsi səbəbindən 85 işçi tikinti sahəsindən uzaqlaşdırılıb, 259 işçi yerində həmin vasitələrlə təmin edilib, nöqsanların aradan qaldırılması məqsədilə 47 halda icrası məcburi olan göstəriş verilib, 659 müəssisədə işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanmasına nail olunub. Bəhs olunan dövrdə 2727 işaxtaran qeydiyyatda olan vakant iş yerlərinə, 327 nəfər sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə, 125 nəfər kvota yerlərinə göndərilib, keçirilmiş əmək yarmarkalarında isə 1057 nəfər işlə təmin edilib. Qeyd olunan dövr ərzində əmək bazarının tələbinə uyğun olaraq, Naxçıvan Regional Peşə Tədris Mərkəzində 25 peşə kursu təşkil edilib və kurslara 439 işaxtaran vətəndaş cəlb olunub.

Evlərdə xalça toxunuşu ənənəsini davam etdirmək üçün sosial qayğıya ehtiyacı olan 27, sağlamlıq imkanları məhdud qadınların müvəqqəti məşğulluqlarını təmin etmək məqsədilə isə 24 nəfərin haqqıödənilən ictimai işlərə cəlb edildiyini bildirən Cavid Səfərov deyib ki, peşə hazırlığı, haqqıödənilən ictimai işlər, vakansiyalar və işəgötürənlərin işçi qüvvəsinə olan tələbləri barədə məlumatların işaxtaranlara çatdırılması məqsədilə internet saytı hazırlanıb. 2014-cü il ərzində təqaüd, sosial müavinət və ünvanlı dövlət sosial yardımına 13 milyon 510 min 926 manat vəsait sərf olunub. Ötən il 530 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxsə evlərində sosial-məişət xidməti göstərilib, Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 218 şəxsin, Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 323 uşağın müalicəsi təşkil edilib. Məhdud fiziki imkanlı 6 şəxsin Yunanıstan Respublikasına, sağlamlıq imkanları məhdud 6 uşağın valideynlərinin müşayiəti ilə Latviya Respublikasına, 15 uşağın isə Gürcüstanın Acarıstan Muxtar Respublikasına müalicəyə göndərilməsi təmin olunub. Müvafiq kateqoriyadan olan 399 nəfər müxtəlif texniki bərpa vasitələri ilə təmin edilib, protez-ortopedik məmulatlara və texniki reabilitasiya vasitələrinə ehtiyacı olan 216 nəfərə yerlərdə səyyar xidmət göstərilib, müvafiq kateqoriyalı şəxslərə 89 minik avtomobili təqdim edilib, sosial qayğıya ehtiyacı olan 3 ailə üçün fərdi yaşayış evi inşa olunub.

Sonra məruzə ətrafında çıxışlar olub.

## Maliyyə Nazirliyində kollegiya iclası keçirilib

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən kollegiya iclasını nazir Xalid İsgəndərov açaraq məruzə ilə çıxış edib.*



Bildirilib ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı bir daha makroiqtisadi dayanıqlılıq və yüksək artım potensialını nümayiş etdirib. Bəhs olunan dövrdə muxtar respublikanın iqtisadiyyatında qazanılan uğurlar dövlət büdcəsinin gəlirlərinə də öz təsirini göstərib. Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2014-cü ildə bütün mənbələr hesabına 66 milyon 800 min manat proqnoza qarşı 74 milyon 84 min 717 manat vəsait daxil olub, tapşırıq 110,9 faiz icra edilib. Bu, nəzərdə tutulan məbləğdən 7 milyon 284 min 717 manat, 2013-cü illə müqayisədə isə 14,2 faiz, yaxud 9 milyon 227 min 94 manat çoxdur.

"Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 2014-cü ildə 447 milyon 333 min 874 manat dürüst təyinata qarşı 444 milyon 430 min 384 manat və ya 99,4 faiz icra olunub", – deyən nazir kollegiya iştirakçılarının nəzərinə çatdırıb ki, 2014-cü il ərzində Maliyyə Nazirliyi tərəfindən aparılan təftiş və yoxlamalarda səhv hesablama və tarif səhvi nəticəsində 39 min 458 manat əməkhaqqının artıq ödənilməsi, 8 min 562 manat dəyərində mal-materialın və yanacağın normadan artıq silinməsi, maddi-məsul şəxslərin üzərində olan 436 manat dəyərində kassa, dərman, ərzaq və mal-materialın kəsir gəlməsi faktı qeydə alınıb. Bu nöqsanların aradan qaldırılması üçün tədbirlər görülərək cəmi 48 min 456 manat məbləğində qanunsuz sərf olunmuş vəsaitin dövlət büdcəsinə bərpa edilməsi təmin edilib.

2014-cü ildə muxtar respublikanın müəssisə və təşkilatlarında aparılan reydlər zamanı əmək intizamının pozulmasına görə, ümumilikdə, 285 nəfər işçidən 4 min 650 manat vəsait tutularaq dövlət büdcəsinə bərpa edilib. Aparılan reydlər zamanı davamlı olaraq işə çıxmadıqlarına görə 26 nəfər işdən azad olunub. Bəhs olunan dövrdə muxtar respublikanın təhsil və mədəniyyət müəssisələrində tarifləşmə cədvəllərinin düzgün işlənməməsi və artıq ştat saxlanılmasına görə 21 min 458 manat məbləğində artıq əməkhaqqı ödənilib. Qanunsuz olaraq ödənilmiş bu vəsaitin 20 min 390 manatı büdcəyə bərpa olunub, bundan sonra ödənişi dayandırılıb, qalan 1068 manatın büdcəyə bərpası ilə bağlı işlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikasının 2015-ci il dövlət büdcəsi proqnozunda xərclər 366 milyon 700 min manat müəyyənləşdirilib. Bu da 2014-cü ilin proqnozuna nisbətən 16 milyon 200 min manat və ya 4,6 faiz çoxdur.

Qeyd olunub ki, 2015-ci il dövlət büdcəsinin xərclərinin 81,9 faizi və ya 300 milyon 181 min 803 manatının cari xərclərə, 18,1 faizi və ya 66 milyon 518 min 197 manatının əsaslı xərclərə yönəldilməsi müəyyənləşdirilib. 2014-cü il proqnozu ilə müqayisədə cari xərclərə 12 milyon 469 min 542 manat və ya 4,3 faiz, əsaslı xərclərə isə 3 milyon 730 min 458 manat və ya 5,9 faiz artıq vəsait proqnozlaşdırılıb.

Məruzə ətrafında müzakirələrdə rayon, şəhər maliyyə şöbələri müdirlərinin çıxışları olub. Nazirliyin Maliyyə nəzarəti və təftiş şöbəsinin müdiri Rəsul Rəsulov Culfa və Şərur rayonlarının yerli gəlir və xərclərinin müvafiq dövrə olan icrasının təftişinin nəticələri barədə məlumat verib.

*Fevralın 20-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.*

## Təhsil işçiləri ötən ili də nailiyyətlərlə başa vurublar



İclasda Təhsil naziri Piri Nağıyev məruzə ilə çıxış edərək bildirib ki, son 10 ildə muxtar respublikamızda 150-dən çox məktəb binası tikilib və ya əsaslı şəkildə yenidən qurulub. İstifadəyə verilən bu təhsil müəssisələri təkcə rayon mərkəzlərini deyil, muxtar respublikamızın ən ucqar dağ kəndlərini də əhatə edib.

Hər il olduğu kimi, 2014-cü ildə də muxtar respublikanın hər yerində aparılan genişmiqyaslı quruculuq və abadlıq işlərinin önündə təhsil müəssisələrinin tikintisi dayanıb. Belə ki, ötən il Naxçıvan şəhərində 9 nömrəli tam orta məktəb, Şərur rayonunda Şərur Texniki-Peşə və Sürücülük Məktəbi, Diyadin, Dizə, Axura, Püsyan, Kürkənd, Babək rayonunda Qahab, Naxışnərgiz, Güznüt, Ordubad rayonunda Aşağı Əylis, Culfa rayonunda Bənəniyar, Şurud, Şahbuz rayonunda Şahbuz şəhər 2 nömrəli, Nursu, Kəngərli rayonunda Qarabağlar kənd 1 nömrəli tam orta məktəbləri üçün binalar şagird və müəllimlərin, Sədərək Rayon Təhsil Şöbəsi üçün inzibati bina isə təhsil işçilərinin istifadəsinə verilib.

Təhsil naziri bildirib ki, muxtar respublikada həyata keçirilən təhsil siyasəti öz bəhrələrini verib, ali və orta ixtisas məktəblərinə həm sənədvermədə, həm də qəbulun nəticələrində keyfiyyət və kəmiyyət artımı müşahidə olunub. 2014-cü ildə XI sinfi bitirən 3993 nəfərdən 3115-i, yəni məzunların 78 faizi ali və orta ixtisas məktəblərinə sənəd verib. Sənəd verənlərdən 1557 nəfəri (49,99 faizi) oğlan, 1558 nəfəri (50,01 faizi) isə qızlardır. Əvvəlki illərin məzunları ilə birlikdə sənəd verənlərin ümumi sayı 5664 nəfərə çatıb. Məzunlar arasında xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 174 olub. Ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında iştirak edən məzunlardan 1725 nəfəri tələbə adını qazanıb. Ali məktəblərə qəbul olunmuş məzunların 347 nəfəri 500-700 intervalında nəticə göstərib.

Muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili istiqamətində həyata keçirilən tədbirlərdən də danışan Piri Nağıyev qeyd edib ki, yeni dərs ili başladığı zamandan muxtar respublikamızda yerləşən Heydər Əliyev Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi və daha 9 muzeylə ümumtəhsil məktəbləri arasında canlı bağlantılar yaradılıb. İlkin mərhələdə 40 məktəblə muzey arasında bağlantı yaradılsa da, haliyədə muxtar respublikamızda muzeylərlə 200-dən çox məktəbin virtual əlaqəsi mövcuddur.

Kollegiya iclasında Piri Nağıyev işdə buraxılan nöqsanlara da toxunub. Bildirib ki, 2013-2014-cü tədris ili ərzində təhsil prosesinə ciddi yanaşmayan, yüksək şagird və müəllim kontingenti olmasına baxmayaraq, ali və orta ixtisas məktəblərinə qəbul zamanı çox zəif nəticə göstərən ümumtəhsil məktəbləri də olub. Bu məktəblərdə pedaqoji kollektivlərin məsuliyyəti artırılmalı, nizam-intizam gücləndirilməlidir.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək qarşıda duran vəzifələrdən danışıb.

## Sığorta fəaliyyəti genişləndirilib

*Fevralın 20-də Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində də 2014-cü ildə görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı iclas keçirilmişdir.*



İclasda agentliyin baş direktoru Hikmət Əsgərov məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi və muxtar respublikanın rayon (şəhər) Dövlət Sığorta agentlikləri öz fəaliyyətlərini 30 noyabr 2011-ci il tarixdə keçirilmiş müşavirədə verilən tapşırıqlara uyğun qurmuşdur. Bu müşavirədə muxtar respublikada sığortanın inkişafı üçün Dövlət Baş Sığorta Agentliyinə verilmiş tapşırıqlar 2014-cü ildə də muxtar respublikada bütün sığorta növlərinin inkişafında mühüm əhəmiyyət daşımış, ötən dövrdə əhalinin kütləvi sığortaya cəlb olunması üçün maarifləndirici tədbirlər həyata keçirilmişdir.

Vurğulanmışdır ki, 2014-cü ildə 2013-cü illə müqayisədə qeyri-həyat (ümumi) sığortası üzrə sığorta tədiyyələrinin toplanması həcmi 9,3 faiz artmış, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 1568 ədəd, daşınmaz əmlakın icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 1957 ədəd, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 158 ədəd, fiziki şəxslərə məxsus əmlakın sığortası 246 ədəd artmışdır. Ötən il sahibkarlara məxsus əmlakın yanğın və digər əlavə risklərdən sığortası üzrə 244 müqavilə bağlanmış, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanuna uyğun olaraq, 708,5 min manat sığorta haqqı toplanmışdır ki, bu, ötən ilin müvafiq dövründən 7,8 faiz çoxdur.

Qeyd olunmuşdur ki, görülmüş işlərlə bərabər, 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin tərkibinə daxil olan bəzi rayon Dövlət Sığorta agentlikləri yaradılmış şəraitdən səmərəli istifadə etməmiş, ayrı-ayrı sığorta növlərinin inkişafında zəif nəticə göstərmişlər. Bildirilmişdir ki, yol verilmiş nöqsanların tezliklə aradan qaldırılması üçün Dövlət Baş Sığorta Agentliyi qarşısına qoyulmuş vəzifələrin icrasını diqqətdə saxlayaraq bundan sonra sığortanın bütün sahələrinin inkişafına, vətəndaşlara xidmət səviyyəsinin yüksəldilməsinə çalışacaq.

Sonra çıxışlar olmuşdur.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri Müslüm Cabbarzadə çıxış edərək qarşıda duran vəzifələrdən danışmışdır.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində 2014-cü ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. İclası nazir Mirsənani Seyidov açaraq məruzə ilə çıxış edib. Qeyd olunub ki, 2014-cü ildə nəqliyyat-yol kompleksinin fəaliyyəti üçün kompleks quruculuq işləri görülüb, maddi-texniki baza gücləndirilib.***

Muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilib, fəaliyyətdə olan 123 marşrut xəttində 299 ədəd avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilib, sərhəd və ucqar dağ kəndlərinə işləyən marşrut avtobuslarının hərəkətinə nəzarət artırılıb.

Naxçıvan şəhərində şəhərdaxili nəqliyyatda fəaliyyət göstərən 6 marşrutda 37 ədəd “King-Long”, 5 ədəd “Liaz” markalı avtobuslar işləyir ki, bunların da hamısı beynəlxalq standartlara cavab verir. 7 və 8 nömrəli marşrutlar isə şəhərətrafı yaşayış məntəqələri ilə Naxçıvan şəhəri arasındakı əlaqənin davamlılığına xidmət edir.

Qeyd olunub ki, Naxçıvan-Bakı marşrutu üzrə işləyən avtobusların fəaliyyəti daim diqqət mərkəzində saxlanılır. Bu marşrutda sərnişinlərə xidmətin səviyyəsinin yüksəldilməsi üçün 2 ədəd “Mersedes Benz-Traveqo” markalı avtobus alınaraq 2014-cü il yanvar ayından xəttə salınıb. Həmin marşrutda həmçinin “M-Trans” şirkətinə və İran İslam Respublikasının “Didari Seyri-Giti” şirkətinə məxsus avtobuslar fəaliyyət göstərir. 2014-cü il ərzində bu avtobuslarla Naxçıvandan Bakıya 1365 reys edilib, 52 min 108 nəfər sərnişin daşınıb. Bakıdan Naxçıvana isə 46 min 371 nəfər sərnişin səfər edib.

Yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin avtonəqliyyat vasitələrinə baxış keçirilib, yükdaşımalarda təhlükəsizlik tədbirləri haqqında həmin sürücülərlə profilaktik söhbətlər aparılıb, 1814 yük maşınına “İcazə blankı” verilib.

2014-cü il ərzində 300 nəfər fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilib, 498 nəqliyyat vasitəsinə lisenziya kartları, vergiyə cəlb olunmuş 13 min 495 avtonəqliyyat vasitəsinə fərqlənmə nişanı verilib. Fərqlənmə nişanı verilmiş avtonəqliyyat vasitələri tərəfindən dövlət büdcəsinə 226 min 796 manat vergi ödənilib.

Lisenziya almış avtomaşınların texniki müayinədən keçirilməsindən əldə olunmuş 49684,80 manat vəsait nazirliyin xüsusi hesabına, lisenziya rüsumu olaraq toplanmış 45 min manat vəsait isə büdcəyə köçürülüb.

Naxçıvan Şəhər Nəqliyyat İdarəsində 2014-cü il ərzində müqavilə xidmət haqqı olaraq, 421 min 784 manat vəsait toplanıb idarənin hesabına köçürülüb.

Bildirilib ki, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti üzrə 2014-cü il ərzində 91 min 437 ton yük, 133 min 942 nəfər sərnişin daşınaraq 23071,40 manat gəlir əldə edilib.

“Naxçıvan Muxtar Respublikası üçün hava nəqliyyatı mühüm əhəmiyyət daşıyır. Aprel ayında yeni inzibati binanın istifadəyə verilməsi muxtar respublika rəhbərinin bu sahəyə göstərdiyi diqqətin daha bir nümunəsi oldu və aviasiya sahəsində aparılacaq işlərin perspektiv planları üçün möhkəm zəmin yaratdı”, – deyən nazir əlavə edib ki, 2014-cü il ərzində Naxçıvan-Bakı reysi ilə 257 min 614 nəfər sərnişin, 3 milyon 566 min 452 kiloqram baqaj, 514 min 525 kiloqram kommersiyatipli yük, 86 min 621 kiloqram poçt yükü daşınıb.

Naxçıvan-Moskva reysi ilə 4179 nəfər, Naxçıvan-Gəncə reysi ilə 9717 nəfər, Naxçıvan-İstanbul reysi ilə 5122 nəfər sərnişin daşınıb.

Ötən il “Naxavtoyol” Dövlət Şirkəti və onun tabeliyində olan Yol İstismar idarələrinin maddi-texniki bazası möhkəmləndirilib, şirkətin gəliri hesabına 3 ədəd özüyükboşaldan avtomaşın, 1 ədəd yükləyici ekskavator, 2 ədəd ekskavator və 1 ədəd qartəmizləyən maşın alınaraq istifadəyə verilib. “Naxavtoyol” Dövlət Şirkətinin xidmət etdiyi 1473 kilometr respublika və yerli əhəmiyyətli avtomobil yollarında hərəkətin intensivliyi təmin edilib.

Məruzə ətrafında “Naxçıvan Dəmir Yolları” MMC-nin direktoru Mahir Əliyevin, Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədlinin, “Naxavtoyol” Dövlət Şirkətinin sektor müdiri Talıb Babayevin çıxışları olub.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev çıxış edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 2014-cü ildə öz işini təsdiq olunmuş tədbirlər planına uyğun quraraq gənclər arasında bədən tərbiyəsinin kütləviliyinə nail olunması üçün məqsədyönlü tədbirlər həyata keçirib, idman və gənclər sahəsində əsaslı dönüş yaradılmasına çalışıb. Ümumilikdə, 2014-cü ildə nazirlik tərəfindən dövlət gənclər siyasəti və idman sahəsində 210 tədbir icra edilib ki, bunlardan 128-i gənclərlə iş, 82-si isə kütləvi bədən tərbiyəsi və idman sahələrini əhatə edib.***



Bu fikirləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya iclasında nazir Azad Cabbarov səsləndirib. Qeyd olunub ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər və idman siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Muxtar respublikada da gənclərlə iş və idman sahələrinə göstərilən xüsusi diqqət və qayğı ən yüksək səviyyədədir. Dövlət gənclər və idman siyasəti muxtar respublikamızda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə uğurla həyata keçirilir. 2014-cü il muxtar respublikamız üçün istər dövlət gənclər siyasəti, istərsə də idman və bədən tərbiyəsi sahələrində bir çox ölkə və beynəlxalq səviyyəli tədbirlərdə uğurlu çıxışlarla yaddaqalan olub.

Naxçıvan Muxtar Respublikasında təşkil edilən tədbirlər barədə də danışan Azad Cabbarov bildirib ki, 2014-cü ildə muxtar respublikamız 3 beynəlxalq yarışa – ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə “Naxçıvan Kuboku” uğrunda beynəlxalq yarışa, “Naxçıvan Open-2014” Beynəlxalq Şahmat Festivalına, qolbol paralimpiya üzrə beynəlxalq turnirə, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş ağırlıqqaldırma üzrə veteranlar arasında “Dünya Kuboku” uğrunda yarışa ev sahibliyi edib. İl ərzində muxtar respublikanın şəhər, rayon, qəsəbə və kənd komandaları arasında müxtəlif idman növləri üzrə birinciliklər, turnirlər, yoldaşlıq görüşləri keçirilib, muxtar respublikaya tanınmış məşqçilər dəvət edilib, yerli məşqçilərin təlimlərdə iştirakı təmin olunub, karate, futbol, şahmat və digər idman növləri üzrə təlim-məşq toplanışları keçirilib.

Vurğulanıb ki, bu gün muxtar respublikada, ümumilikdə, 38 min 586 nəfər yeniyetmə və gənc idmanla məşğul olur. 2014-cü il ərzində ayrı-ayrı növlər üzrə gənc idmançılarımızın respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib, idmançılarımız dünya çempionatlarında 2, Avropa çempionatında 3, beynəlxalq turnirlərdə 16, Azərbaycan birinciliklərində isə 56 medal qazanıblar.

2015-ci ildə qarşıda duran vəzifələrdən də geniş bəhs olunduğu kollegiya iclasında qarşıdakı dövrdə ən vacib tədbirlərdən birinin bu il ölkəmizdə keçiriləcək Birinci Avropa Oyunlarında muxtar respublika idmançılarının iştirakı, muxtar respublikada keçiriləcək Məşəl Festivalı üçün ciddi hazırlıq işlərinin görülməsindən ibarət olduğu bildirilib.

Sonra Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimovun, Gənclərlə iş şöbəsinin baş məsləhətçisi Nicat Babayevin, Culfa Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənlinin, Kəngərli Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynovun çıxışları olub.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov yekun vurub.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində də 2014-cü ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***

Kollegiya iclasında komitənin sədri Valeh Vəliyev çıxış edərək bildirib ki, 2014-cü il ərzində muxtar respublikanın Şərur, Sədərək və Kəngərli rayonlarında yerli icra orqanları, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə görüşlər keçirilib, onlara “Əkin atlası”ndan istifadə qaydaları, eyni zamanda torpaqların münbitliyinin qorunması və artırılması, müasir əkin üsullarının və texnologiyalarının əhəmiyyəti barədə ətraflı məlumatlar verilib.

Qeyd olunub ki, muxtar respublikanın Sədərək, Şərur, Kəngərli, Culfa, Ordubad, Babək rayonlarının və Naxçıvan şəhərinin ərazisində olan eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqlar komitənin mütəxəssisləri tərəfindən naturada müəyyən edilib. Həmin ərazilər plana alınıb, ərazilərin eksplikasiyası tərtib olunub və xəritələşdirilib. Vurğulanıb ki, muxtar respublika üzrə şoranlaşmaqda olan əkin sahələri 1698 hektar, qrunt sularının üzə çıxması nəticəsində



çəmənləşən əkin sahələri 5635 hektar, şoranlaşan örüş sahələri isə 2434 hektardır. Şoranlaşmaqda olan 1698 hektar əkin sahəsinin 806 hektarı Sədərək, 187 hektarı Şərur, 124 hektarı Kəngərli, 66 hektarı Culfa, 94 hektarı Babək rayonlarının, 421 hektarı isə Naxçıvan şəhərinin ərazisindədir. Çəmənləşən 5635 hektar əkin sahəsinin 112 hektarı Sədərək, 3073 hektarı Şərur, 1117 hektarı Kəngərli, 572 hektarı Culfa, 34 hektarı Ordubad, 690 hektarı Babək rayonlarının, 37 hektarı isə Naxçıvan şəhərinin ərazisindədir. 2434 hektar şoranlaşan örüş sahələrinin 2301 hektarı Sədərək, 133 hektarı isə Şərur rayonlarının ərazisindədir. Şərur rayonunun Alışar kəndində 24 hektar, Babək rayonunun Güznüt kəndində isə 49 hektar həyətyanı torpaq sahəsində qrunt sularının üzə çıxması müşahidə olunmaqdadır.

Komitə sədrinin sözlərinə görə, istifadə olunmayan əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə qatılması məqsədilə muxtar respublikanın Şərur, Culfa və Kəngərli rayonları üzrə əkinəyararlı torpaq sahələrinin kəmiyyətcə uçotu dəqiqləşdirilib, Şərur rayonu üzrə 1328,5 hektar, Kəngərli rayonu üzrə 1771,1 hektar, Culfa rayonu üzrə isə 1443,6 hektar əkinəyararlı torpaq sahəsinin torpaq islahatı zamanı mülkiyyətə verilmədiyi müəyyən olunub.

Muxtar respublika ərazisində suvarılan torpaq sahələrinin artırılması istiqamətində xeyli işlər görülüb. Suvarılan torpaq sahələrinin genişləndirilməsi və su təminatının yaxşılaşdırılması məqsədilə Kəngərli rayonunun Böyükdüz ərazisində əkilməyən 500 hektar torpaq sahəsinə yeni suvarma xətti çəkilib. Uzunoba Su Anbarından çəkilən suvarma xətti vasitəsilə suvarıla biləcək əkin sahələrinin mütəxəssislərimiz tərəfindən topoqrafik planları hazırlanıb, torpaq sahələrinin eksplikasiyası tərtib edilərək aidiyyəti orqanlara təhvil verilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



***Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində 2014-cü ildə görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilib.***

İclası giriş sözü ilə idarənin rəisi Fazil İbrahimov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, idarənin 2014-cü il üçün təsdiq olunmuş iş planına əsasən, Naxçıvan Muxtar Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında illik hesabata rəy hazırlanıb. Naxçıvan Muxtar Respublikası büdcəsinin xərclərinə maliyyə-büdcə nəzarəti tədbirləri çərçivəsində idarə tərəfindən 10 müəssisə, idarə və təşkilatlar üzrə təhlil işləri və 10 müəssisə, idarə və təşkilatlarda audit yoxlamaları aparılıb.

Qeyd olunub ki, idarə tərəfindən 10 təşkilat üzrə aparılan analitik təhlillər zamanı maliyyə hesabatlarının düzgün doldurulmadığı müəyyən edilib. Aparılan audit tədbirləri nəticəsində 1 təşkilatda 1 nəfərin əməkhaqqından 185,02 manat az gəlir vergisi tutulduğu, 1 təşkilatda 1 nəfərə tarif səhvinə görə 37,95 manat, 1 təşkilatda isə 1 nəfərə 78 manat ezamiyyə xərcinin artıq ödənildiyi müəyyən edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin fəaliyyətini daha da yaxşılaşdırmaq üçün ötən il də kompleks tədbirlər davam etdirilib. Şərur, Babək, Şahbuz, Sədərək rayonlarında və Naxçıvan şəhərində baytarlıq idarə və laboratoriyaları müasir avadanlıqlarla təmin olunub.***

Dövlət Baytarlıq Xidmətinin 2014-cü ildə görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı keçirilən kollegiya iclasında çıxış edən xidmətin rəisi Əbil Əbilov onu da qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın icrası ilə bağlı qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb.



Xidmət rəisi bildirib ki, mal-qaranın cins tərkibinin dəyişdirilməsi üçün son illər süni mayalanma işinin daha da genişləndirilməsi məqsədilə kompleks tədbirlər davam etdirilib, ötən il 7559 baş inək və düyə süni mayalandırılaraq 6555 baş sağlam buzov alınıb. Bəhs olunan dövrdə 471 min 165 baş helmintoloji müayinə aparılıb. Baytar sanitar-ekspertiza və bakterioloji laboratoriyalarda 9792 heyvan nümunəsi infeksion xəstəliklərə görə bakterioskopik müayinədən keçirilib.

Dövlətimiz tərəfindən bu sahədə çalışan mütəxəssislərə yaradılmış şərait, xidmətin tabeliyində olan qurumların maddi-texniki bazasının gücləndirilməsi hesabına muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında saxlanılan heyvanlarda heç bir xəstəlik qeydə alınmayıb. Bu səbəbdəndir ki, ötən il muxtar respublikada iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların baş sayı artıb.

Əbil Əbilov qarşıda duran vəzifələrdən də danışıb. Bildirib ki, 2015-ci ildə epizootiya əleyhinə mübarizə və müalicə-profilaktika planında nəzərdə tutulmuş tədbirlər vaxtında və keyfiyyətlə icra olunmalı, heyvanların yoluxan və yoluxmayan xəstəliklərinin profilaktikası, diaqnostikası və müalicəsi vaxtında həyata keçirilməlidir.

Məruzə ətrafında müzakirələrdə xidmətin əməkdaşlarından Şəmsəddin Nağıyevin, Mehdi Əliyevin və başqalarının çıxışları olub.

**Xəbərlər şöbəsi**

# 2015-ci ilin yanvar ayı üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, muxtar respublikada cari ilin yanvar ayında 143 milyon 469 min manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar ayı ilə müqayisədə 2,1 faiz çoxdur.

Hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2014-cü ilin yanvar ayı ilə müqayisədə 1,5 faiz artaraq 326,1 manata (415,7 ABŞ dollarına) çatmışdır.

* * *

Muxtar respublikada yaradılan Ümumi Daxili Məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 83 milyon 853 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 2,1 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində əsas kapitala 67 milyon 549 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 4,4 faiz çoxdur. Cari ildə əsas kapitala yönəldilmiş investisiyaların 59 milyon 710 min manatı və ya 88,4 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2015-ci ilin yanvar ayında informasiya və rabitə xidmətlərinin həcmi 3 milyon 617 min manat olmuşdur. Bu da 2014-cü ilin yanvar ayı ilə müqayisədə 4,1 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 2 milyon 847 min manat olmaqla, bir il öncəki göstəricini 0,7 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar ayı ərzində 6 milyon 705 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 1,7 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada 1,7 min ton ət (diri çəkidə), 1,9 min ton süd istehsal edilmiş, 2014-cü ilin yanvar ayı ilə müqayisədə ət istehsalı 1,3 faiz, süd istehsalı 0,6 faiz artmışdır.

* * *

Əhali gəlirləri üzrə müsbət dinamika davam etməkdədir. Cari ilin yanvar ayında muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz artaraq 100 milyon 883 min manat, onun hər bir nəfərə düşən həcmi isə 1,1 faiz yüksələrək 229,3 manat təşkil etmişdir.

* * *

2015-ci ilin yanvar ayında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 391,5 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,9 faiz artmışdır.

* * *

Muxtar respublika iqtisadiyyatının möhkəmlənməsində, hərtərəfli və dinamik inkişafında xüsusi rolu olan bank sektorunun normal fəaliyyəti təmin olunmuşdur. 1 fevral 2015-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 39308-ə çatmışdır ki, bunun da 36052-si və ya 91,7 faizi aktiv hesablardır. 2015-ci ilin yanvar ayı ərzində açılmış 1054 bank hesabı aktiv hesab olmuşdur.

Cari ilin yanvar ayında muxtar respublikada 42 POS-terminal quraşdırılmış və POS-terminalların sayı 1 fevral 2015-ci il tarixə 909-a çatmışdır.

* * *

Muxtar respublika iqtisadiyyatının şaxələndirilməsi və dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə şərait yaratmışdır. Cari ilin yanvar ayında muxtar respublikada 26 milyon 220 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır ki, bu da bir il öncəki göstəricini 1 faiz üstələmişdir. İxracın həcmi son bir il ərzində 10,8 faiz artaraq 23 milyon Amerika Birləşmiş Ştatları dollarını ötmüş, idxalın həcmi isə 41 faiz azalaraq 2 milyon 903 min Amerika Birləşmiş Ştatları dolları həcmində olmuşdur. Xarici ticarət üzrə 20 milyon Amerika Birləşmiş Ştatları dollarından artıq müsbət saldo yaranmışdır.

* * *

Sahibkarlıq strukturlarının kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2015-ci ilin yanvar ayında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 3 milyon 323 min manata yaxın kreditlər verilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 63 faiz çoxdur.

* * *

Qeyd olunan dövrdə muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 324 min 900 manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 22 min 500 manat və ya 7,4 faiz çoxdur.

* * *

Cari ilin yanvar ayında muxtar respublikaya 14 min 753 nəfər turist gəlmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz və ya 278 nəfər çoxdur.

* * *

1 yanvar 2015-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4415 nəfər və ya 1 faiz artaraq 439782 nəfər təşkil etmişdir.

# Şahbuz: quruculuq və inkişaf ünvanı



Şahbuz rayonunun 2014-cü ildə nail olduğu sosial-iqtisadi inkişafla bağlı hazırlayacağım yazı üçün qeydlərimə baxanda bir anlığa fikrimdən bir sual keçdi: inkişafın təməlində duran amillər hansılardır? Hiss etdim ki, ilk olaraq, bu suallara cavab tapmasam, yazı istədiyim kimi alınmayacaq...

... Gələcəyə nikbin baxış, sabaha məsuliyyət və cavabdehlik hissi, əzmkarlıq və quruculuq iradəsi, düzgün seçilən yol – bu gün Şahbuzun müasir rayona çevrilməsində bunların başlıca amillər olduğu qənaətinə gəlsək, səhv etmərik. Bir qədər geriyə qayıdaq, yaxın tarixi vərəqləyək. Bir vaxtlar ən tipik və ən ucqar əyalət kəndindən seçilməyən bu yurd yeri gözdənuzaq, könüldəniraq bir ünvan olub. Bunu orta və yaşlı nəsil yaxşı xatırlayır. Muxtar respublikada ilk quruculuq tədbirlərinə start veriləndə bu bölgə digər yaşayış məntəqələri ilə müqayisədə, sözün həqiqi mənasında, miskin bir görkəmdə idi. Rayonun füsunkar mənzərələri, təbiət abidələri də bu görkəmi ört-basdır edə bilmirdi.

Ötən illər ərzində Şahbuz elə bir inkişaf mərhələsinə qovuşub ki, doğrudan da, buna inanmaq çətindir, baxmayaraq ki, bu proses bizim gözlərimiz qarşısında baş verib. Ancaq fakt faktlığında qalır. Necə deyərlər, "Görünən dağa bələdçi lazım deyil".

Rayon ziyalısı Xanlar Səfərəliyev deyir ki, muxtar respublikamızın bölgələrindən biri olan Şahbuz rayonu da inkişaf və tərəqqi baxımından nümunə gücündədir.

### *Rayonun ötənilki quruculuq xəritəsi*

Xanlar müəllim söhbətinə davam edərək bildirir ki, Şahbuz rayonunda ilk quruculuq tədbirlərinə rayon mərkəzi ilə paralel olaraq ucqar dağ və sərhəd kəndlərindən başlanılıb. Dəniz səviyyəsindən xeyli yüksəkdə yerləşən belə yaşayış məntəqələrinə gedən yolları bu gün təsvir etsək, bəlkə də, çoxları inanmaz. Ancaq o yolları görənlər bu gün də yaşayırlar. Sözümün canı ondadır ki, kəndlərdə həyata keçirilən kompleks quruculuq tədbirləri həmin ünvanlara çox böyük həcmdə tikinti materialları aparılmasını tələb edirdi. Ancaq həmin yollar elə bir vəziyyədə idi ki, quruculuq işlərini yubadırdı. Elə o vaxt yolların təmiri, yenidən qurulması üstün istiqamət kimi qəbul edildiyindən başlıca çətinlik aradan qaldırıldı. Və burada yadımıza "Abad yurd yolundan tanınar" deyimi düşür. Həm yollar düzəldildi, həm də bu yolların getdiyi mənzil başı abad ünvanlara çevrildi. Şada, Biçənək, Yuxarı Qışlaq, Keçili, Külüs və başqa yaşayış məntəqələri müasir rayonun ilk nümunəvi kəndləri oldular. Bu gün 836,6 kvadratkilometr ərazini əhatə edən bölgənin əhalisi 25 minə yaxındır. Rayonda 1 şəhər, 1 qəsəbə, 22 kənd vardır. Onların hamısında quruculuq tədbirləri həyata keçirilib və bu proses bu gün də davam etdirilir.

Rayonun ictimai həyatında fəal iştirak edən Xanlar müəllim qürurla bildirir ki, ötən il Şahbuz rayonunda həyata keçirilən quruculuq tədbirləri bölgənin füsunkar gözəlliyinə əlavə çalarlar qatıb. Rayon mərkəzində rabitə evinin əsaslı təmiri, şəhər mərkəzinin tikintisi başa çatdırılıb. Gömür kəndində kompleks quruculuq tədbirləri çərçivəsində kənd və xidmət mərkəzləri inşa olunub, 110 şagird yerlik tam orta məktəb binası yenidən qurulub. Şahbuz şəhərində bir yaşayış binasının təmiri başa çatdırılıb, 1 yaşayış binasında bu tədbir davam etdirilib. Ahıllar evinin əsaslı təmiri, 216 şagird yerlik Şahbuz şəhər 2 nömrəli tam orta məktəb binasının tikintisi, Sələsüz və Nursu kəndlərinin hər birində 234 şagird yerlik tam orta məktəb binalarının yenidən qurulması da ötən ilin quruculuq tədbirlərindəndir.

Ən ucqar dağ kəndi olan Nursu kəndində həm də xidmət mərkəzi və həkim ambulatoriyası binaları tikilib, Xalq şairi Məmməd Arazın ev-muzeyi istifadəyə verilib. Kənd tam orta məktəbinin müəllimi Rizvan Bağırov bu ucqar dağ kəndinə göstərilən qayğını mahiyyət etibarı ilə insan amilinə göstərilən qayğı hesab edir:

– Tikinti-quruculuq tədbirləri bu gün muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilib. Ona görə də belə tədbirlər bizə adi görünür. Xalq şairimiz Məmməd Arazın ev-muzeyinin açılışına paytaxt Bakı şəhərindən gələn qonaqlar Nursu kimi ucqar bir yaşayış məntəqəsində qurulub-yaradılanları görəndə gözlərinə inanmadılar. Etiraf etdilər ki, burada şəhər infrastrukturu yaradılıb. Ancaq o da var ki, genişmiqyaslı quruculuq işlərini həyata keçirmək heç də asan məsələ deyil. Xüsusən də ucqar ünvanlarda. Buna görə də nursulular göstərilən dövlət qayğısına öz əməli işləri ilə cavab verməyə çalışırlar.

Görülən işlər sırasına rayon İcra Hakimiyyətindən məlumat aldığımız digər quruculuq tədbirlərini də əlavə etsək, bir il ərzində bölgədə xeyli həcmdə iş görüldüyünün şahidi olarıq. Ötən il 11,2 kilometr Şahbuz şəhər-Nursu avtomobil yoluna qara örtük salınıb, 360 metr suötürücü kanal tikilib. Gömür kənd yolunda da quruculuq işləri aparılıb, 1,4 kilometr yola asfalt döşənib, 90 metr suötürücü kanal inşa olunub. Biçənək və Badamlı kəndlərinin hər birində 1 körpü tikilib. Şəhərdaxili 1,2 kilometr suötürücü kanal inşa olunub, şəhərdaxili və Külüs-Keçili yolunda təmir işləri aparılıb. Sürücü Zahid Rüstəmov deyir ki, bu gün Şahbuz rayonunun yolları müasir standartlar səviyyəsindədir: hər il cari təmir işlərinin aparılması yolların sıradan çıxmasının qarşısını alır. Bu isə sərnişinlərin və avtomobillərin təhlükəsizliyində mühüm əhəmiyyət kəsb edir.

Bu gün Şahbuzda müasir rabitə texnologiyalarının tətbiqi diqqətdə saxlanılan məsələlərdən biridir. Ötən il bölgədə rabitə sahəsinə də quruculuq tədbirlərindən pay düşüb. 19 ədəd yeni nəsil "NGN" tipli, Gömür və Daylaqlı kəndlərində 96 nömrə tutumlu "Karel DS 200" tipli yeni avtomat telefon stansiyaları quraşdırılıb, Sələsüz kəndində 384 nömrə tutumlu "Daewoo", Şahbuz şəhərində 513, Nursu kəndində 256 nömrə tutumlu "NGN" tipli avtomat telefon stansiyası yeni inşa olunmuş binalara köçürülüb.

Enerji təminatının yaxşılaşdırılması məqsədilə Şahbuz şəhərində 160 kva, Biçənək kəndində 2 ədəd 63 kva, Nursu kəndində 250 kva gücündə yeni transformator yarımstansiyaları qoyulub, 17 ədəd transformatorda cari təmir işləri aparılıb, 7 kilometr uzunluqda 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilib.

İl ərzində 103 abonentə yeni qaz xətti çəkilib, 15 ədəd istismar müddəti keçmiş qazpaylayıcı şkaf dəyişdirilib, 3110 ədəd qaz sayğacı yenisi ilə əvəz olunub.

Adıçəkilən üç istiqamətdə həyata keçirilən tədbirlərə Şahbuz şəhər sakini Növrəstə Xudiyeva öz münasibətini bildirir: "Bu günlərin qədrini bilmək lazımdır. 20 il əvvəli gözləriniz önünə gətirin. Saatlarla işıqsız qalan bir region bu gün elektrik enerjisi ixrac edir. Bu, sosial-iqtisadi inkişafın ən bariz göstəricisidir və Şahbuz rayonu da bu inkişafdan yetərincə bəhrələnib".

### *Torpağın hər qarışından istifadə olunur*

Rayon sakinlərinin içməli suya, torpaq mülkiyyətçilərinin suvarma suyuna olan tələbatının ödənilməsi üçün həyata keçirilən tədbirlər davam etdirilir. Bəhs olunan dövrdə 5 nasos stansiyasında təmir işləri aparılıb, Daylaqlı, Şahbuzkənd və Əcəmi nasos stansiyalarında 2,7 kilometr suvarma boru xətləri təmir olunub, Şahbuz şəhərində və kəndlərdə 1,2 kilometr yeni suvarma boru xətti çəkilib. Şahbuz şəhərində və İşgəsu massivində 1 kilometr içməli su xətti təmir olunub, Şahbuz şəhəri, Biçənək, Ağbulaq və Sələsüz kəndlərində 6,7 kilometr yeni içməli su xətti çəkilib.

Bir məsələni də qeyd edək ki, "Rayon mərkəzi və ətraf kəndlərdə su təchizatı və kanalizasiya şəbəkəsinin yenidən qurulması" layihəsi ötən il davam etdirilib, layihə çərçivəsində 16,18 kilometr içməli su xətti, 1,9 kilometr kanalizasiya şəbəkəsi çəkilib, 276 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb, 30 metr uzunluğunda kaptaj tikilib.

Torpaq mülkiyyətçisi, sahibkar Nurlan Xəlilov deyir: "Son illər həyata keçirilən meliorasiya və irriqasiya tədbirləri bölgənin məhsuldar torpaq sahələrini cana gətirib. Bu gün bir qarış torpağı əkilməmiş qoymayan kənd adamları belə tədbirlərdən xeyli razılıq edir, məhsul bolluğu yaradılmasına çalışırlar".

Yeri gəlmişkən qeyd edək ki, bu səbəbdən ötən il rayonda 4431 ton dənli və dənli-paxlalılar, 11,9 ton qarğıdalı, 8 ton günəbaxan, 6883 ton kartof, 4816 ton tərəvəz, 69,7 ton bostan məhsulları, 4718 ton meyvə, 158 ton üzüm tədarük edilib. Heyvandarlıq təsərrüfatlarında da artıma nail olunub: 2456 ton ət, 14012 ton süd, 5 milyon 398 min ədəd yumurta, 172,3 ton süd istehsal olunub. Bu, bütün istehsal sahələri üzrə əvvəlki ildən xeyli çoxdur.

### *Sosial sahəyə qayğı daha da artırılıb*

Adıçəkilən dövr ərzində rayon Məşğulluq Mərkəzində 365 nəfər işaxtaran qeydiyyata alınıb, bunlardan 315 nəfər işlə təmin olunub. 34 nəfər peşə hazırlığına cəlb edilib, 42 nəfər ictimai işlərə, 12 nəfər kvota yerlərinə göndərilib. Rübdə 1 dəfə olmaqla, 4 dəfə əmək yarmarkası keçirilib, 105 şəxsə göndəriş verilib, 105 nəfər işlə təmin olunub, 5 nəfər peşə hazırlığına cəlb edilib.

2014-cü ildə rayonun ahıl, əlil və tənha sakinlərinə göstərilən qayğı davam etdirilib, problemlərinin həlli diqqət mərkəzində saxlanılıb. Rayon Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 7 vətəndaşa, o cümlədən 4-ü 1941-1945-ci illər müharibəsi əlili, 1-i Çernobıl Atom Elektrik Stansiyası qəzasının aradan qaldırılması zamanı və 2-si hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslərə "NAZ-Lifan" markalı minik avtomobili, sağlamlıq imkanları məhdud 6 şəxsə əlil arabası, 8 şəxsə eşitmə aparatı, 34 şəxsə isə əsa verilib.

***2014-cü ildə Şahbuzda əvvəlki illərin estafeti uğurla davam etdirilib, ilboyu çəkilən zəhmət hədər getməyib, diqqətçəkən uğurlara imza atılıb. Rayon sakinləri dövlətimizin hərtərəfli qayğısı sayəsində ötən il qazandıqları nəticələri rekord saymır, daha böyük uğurlar qazanılması üçün bu il də səylə çalışırlar.***

**Muxtar MƏMMƏDOV**

## Beynəlxalq Ana Dili Günü münasibətilə tədbirlər keçirilib



***Naxçıvan Dövlət Universitetində Beynəlxalq Ana Dili Gününə həsr olunmuş konfrans keçirilib.***

Konfransda çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana Dili Günü hər kəsə öz doğma dilinin varlığını qorumaq, onunla qürur duymaq, onu inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Rektor qeyd edib ki, bu gün dilimizin dövlət statuslu dillər sırasında olmasına görə dilimizin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş, "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm", – deyən ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq.

Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının dosenti Mehriban Quliyevanın "Beynəlxalq Ana Dili Gününün təsisi", həmin kafedranın müdiri, pedaqogika üzrə elmlər doktoru, professor Elbəyi Maqsudovun "Ana dili müstəqillik illərində" mövzularında məruzələri dinlənilib. Məruzələrdə vurğulanıb ki, ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması ana dilimizin gözəl bilicisi, mahir natiq ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

**Mina QASIMOVA**

* * *



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə 21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə "Dilim zəngin xəzinəmdir" mövzusunda IV muxtar respublika şeir müsabiqəsi keçirilib.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Rəşad Kərimov, Təhsil Nazirliyinin şöbə müdiri Firudin Zamanov, Azərbaycan Yazıçılar Birliyinin üzvü Elxan Yurdoğlu çıxış edərək bu günün qeyd edilməsinin əhəmiyyətindən danışıblar. Bildirilib ki, Azərbaycan dilinin inkişafı sahəsində atılan ən mühüm addım ümummilli liderimiz Heydər Əliyevin qətiyyəti sayəsində 1978-ci ildə ölkənin Əsas Qanununda Azərbaycan dilinin dövlət dili kimi təsbiti idi. Xalqımızın əsas milli dəyərlərindən biri olan ana dilinin sonrakı dövrlərdə də qorunması və inkişaf etdirilməsi istiqamətində bir sıra tədbirlər görülüb, qanunvericilik bazası möhkəmləndirilib.

"Dilim zəngin xəzinəmdir" mövzusunda IV muxtar respublika şeir müsabiqəsində 13 şagird və kursant şeir qiraət edib. Müsabiqədə Babək rayon Qoşadizə kənd tam orta məktəbinin şagirdi Gülənbər Nuriyeva I yerin qalibi olub. Şərur rayon Vərməziyar kənd tam orta məktəbinin şagirdi Həsən Həsənli və Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Səma Xəlilli II yerə, Heydər Əliyev adına Hərbi Liseyin kursantı Muxtar Xudiyev, Heydər Əliyev adına tam orta məktəbin şagirdi Ruslan Babayev və Sədərək rayon Sədərək kənd 2 nömrəli tam orta məktəbin şagirdi Nurşən Məmişova III yerə layiq görülüblər.

Sonda qaliblər və həvəsləndirici yerlərə layiq görülənlər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## "Laçın dəhlizi" filmi nümayiş etdirilib

Dünən Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, Gənclər və İdman Nazirliyinin



təşkilatçılığı ilə Xocalı şəhidlərinin xatirəsinin yad edilməsi və yeniyetmələrə vətənpərvərlik hislərinin aşılanması məqsədilə "Laçın dəhlizi" bədii filmi nümayiş olunub. Muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri filmə baxıblar.

Qeyd edək ki, bu səpkidə filmlərin nümayiş etdirilməsi qarşıdakı aylarda da nəzərdə tutulub.

## Ekoloji təhsil günün tələbidir

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Təhsil Nazirliyi ilə birgə hazırlanmış tədbirlər planına uyğun olaraq, ümumtəhsil məktəblərində və məktəbdənkənar tərbiyə müəssisələrində Naxçıvanın təbiətinin öyrənilməsi, təbiətə qayğı ilə yanaşılması və ekoloji məsələlərə düzgün münasibətin formalaşdırılması məqsədilə tədbirlər keçirir. Tədbirlər planı çərçivəsində Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə məktəblilərin ekoloji biliklərinin artırılması və maarifləndirilməsi məqsədilə sərgi-seminar keçirilib. Seminarda məktəbin direktoru Namiq Məmmədov bildirib ki, təbiəti qorumaq və ekoloji məsələlərə məktəblilərin diqqətini artırmaq üçün, ilk növbədə, onlara təbiət elmlərini yaxşı öyrətmək və sevdirmək lazımdır. Təbiəti qorumaq hamının vətəndaşlıq borcu olduğu üçün elə bu bilikləri şagirdlərə onları vətəndaş kimi formalaşdırdığımız məktəbdə öyrətməliyik.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Elçin Kazımov vurğulayıb ki, bu gün ölkəmizdə və muxtar respublikamızda təbiətin qorunması və əlverişli ekoloji mühitin yaradılması, ən əsası isə vətəndaşlarımızın ekoloji təhlükəsiz yaşamasının təmin edilməsi üçün lazımi tədbirlər görülür. Bu sahədə görülən işlər haqqında məlumatlandırılan şagirdlər sonra Naxçıvanın bitki və heyvanat aləminə dair hazırlanmış videofilmə və sərgiyə baxıblar.

Sonra məktəb şagirdləri təbiətə aid şeirlər söyləyiblər.

**✍ Ceyhun MƏMMƏDOV**

***Xalq etimologiyasına görə, fevral ayı görüləcək işlərin, keçiriləcək bayram və mərasimlərin özünəməxsusluğu ilə seçilir. Bu ayla bağlı inanc sistemləri də olduqca çox maraqlıdır. Xalq təqviminə görə, bu ay kiçik çillə və boz ayın ilk iki çərşənbəsindən ibarətdir. Kiçik çillə yanvarın 31-dən fevralın 19-a qədərki dövrü əhatə edir. Bu dövrdə Naxçıvan bölgəsində bayram və mərasimlər qeyd edilərdi. Bunlardan birincisi, "Çoban bayramı" və ya "Sayagəzmə" adlanırdı ki, bu mərasim fevral ayının əvvəllərinə təsadüf edirdi. Mənbələrin verdiyi məlumata görə, bayramı keçirməkdə əsas məqsəd yer ruhlarını razı salıb, döl bərəkətini artırmaq və heyvanları sağlam vəziyyətdə yaza çıxartmaq idi.***

*Xalq təqvimi*

## Boz ay qışdan yaza keçid dövrüdür

Fevral ayında keçirilən mərasimlərdən biri də Culfa bölgəsinin dağlıq zonalarında qeyd edilən "Çilləkəsdi" mərasimi idi. Bu mərasim zamanı qardan heyvan fiqurları düzəldər, bu fiqurların ətrafında əyləncə, şənlik təşkil edərdilər.

"Xıdır Nəbi" bayramı da fevral ayında keçirilən bayramlarımızdan biridir. Onu da qeyd edək ki, bu bayram kiçik çillənin onuncu günü, yəni fevral ayının 9-u keçirilməlidir.

Xalq təqviminə görə, kiçik çillə fevral ayının 19-u öz ömrünü başa vurub, yerini boz aya verir. Boz ay xalq arasında həm də "alaçalpov", "çilləbeçə", "ağlar-gülər", "cəmlələr" adları ilə bilinməkdədir. Boz ay kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə (martın 21-nə) qədər olan dövrdür. Ayın adının bu cür adlanması onun buludlu, yağışlı, küləkli, bəzən günəşli – bir sözlə, dəyişkən olması ilə bağlıdır.

Xalq arasında boz ay haqqında bir deyim var: "Boz ay bozara-bozara keçər". Bu daha çox boz ayın sərtliyinə və havaların bozarmasına işarədir. Boz ayın dəyişkən olması ilə əlaqədar bir rəvayətdə deyilir ki, qədim dövrlərdə insanlar ili hesablamaq üçün onu 12 aya bölüblər. Bu vaxt hər aya 32 gün, təkcə boz aya 14 gün düşür. Boz ay inciməsin deyə, hər ay ömründən bir gün bu aya verir. Lakin boz ay yenə narazı qalır. Bunu görən ayların bəzisi ömründən bir gün də götürüb boz aya verir. Buna görə də ayların bəzisi 30 gün, bəzisi isə 31 gündən ibarətdir. Deyilənlərə görə, boz ayda havaların bu cür dəyişkən olmasının səbəbi hər aydan pay aldığına görədir. Bu ayın xalq arasında bilinən digər bir adının "ağlar-gülər" adlanması da havaların dəyişkən olması ilə əlaqədardır.

Kiçik çillə ilə Novruz arasındakı boz ay qışdan yaza keçid dövrüdür. Xalq arasında boz aya "bayram ayı" da deyilməkdədir. Ordubad bölgəsində bu ay həm də "aftabovut" adlanır ki, mənası "Günəşin düşməsi", "Günəş" anlamına gəlir. Müxtəlif adlarla bilinən boz ayın dörd çərşənbəsi çilləçıxartma dövrünü əhatə edir.

Topladığımız etnoqrafik materiallara görə, axır çərşənbəyə hazırlıq kiçik çillədən sonra başlanır. İlk növbədə, həyət-baca təmizlənir, evlər səliqə-sahmana salınır. El arasında buna "külə-külə" də deyərlər. Həmin gün yaxın qohumlar yaslı olan qohumların evlərinə gedib, ağbirçəklərdən icazə alıb onların evlərini təmizləyər, əyinlərindəki yas paltarlarını çıxarıb, bayram libası geyindirərlər. Bu cür evlərdə bütün əşyaların yeri dəyişdirilməlidir ki, evdə kəsavət, ağırlıq qalmasın.

Təsərrüfat sahələri ilə bağlı görüləcək işlərə fevral ayında az rast gəlinsə də, bəzi işlər həyata keçirilərdi. Əkinçiliklə bağlı təqvim adətlərin, inamların və mərasimlərin başlanğıcı Novruz bayramından hesab olunsa da, əkin üçün hazırlıq işlərinə kiçik çillədən, daha dəqiq desək, Xıdır Nəbi bayramından sonra, yəni fevral ayından başlayardılar. Əkin üçün lazım olan alətlər itilənib hazırlanar, əkiləcək məhsulların toxumları çeşidlənib seçilər, qoşquya qoşulacaq heyvanlar seçilərək onların xüsusi bəslənməsinə başlanardı.

Ərazimizdə arıçılıq təsərrüfatında kiçik çillədən sonrakı dövr "arının oyanma dövrü" adlanır. İlin gəlməsindən asılı olaraq, aran zonada fevralın axırı arını eşiyə çıxardarlar. Bu, xalq arasında "arının birinci ac dövrü" adlanır. Bəhs olunan dövrdə arıya yem (şirə) verilir.

İlin bu dövrü ehtiyat ərzaq məhsullarının bitib-tükəndiyi dövrdür. Ancaq buna baxmayaraq, hər bir ailə çalışardı ki, yaza qovurmasından az da olsa, saxlasın. Bu dövrdə, yəni fevral ayında, Novruz bayramına bir ay qalmış qovurmasını qurtaranlar haqqında belə deyərdilər:

*Çillə çıxıb, bayrama bir ay qalıb,*
*Pinti arvad qovurmasın qurtarıb.*

Xalqın müşahidələrinə əsasən, demək olar ki, yazın ilk əlaməti leyləyin qayıtmasıdır. Leyləklər, əsasən, kiçik çillənin sonu, çilləbeçənin əvvəllərində qayıdırlar. Bundan sonra havalar bir neçə günlüyə soyuyur, soyuq küləklər əsir. Buna "leylək boranı" deyirlər. Xalq arasında deyirlər ki, gərək leyləyin yumurtasının üstünə qar yağa. Ümumən, leyləklər erkən qayıtdıqda öz köhnə yuvalarına dönürlər. Onlar Novruzu yuvalarında keçirirlər. Bir atalar sözü var ki, bu atalar sözündə leyləyin yuvasına döndüyü zaman çox açıq bir şəkildə təsvir edilir: "Cəmrə havaya, leylək yuvaya". Deməli, leyləklər yuvalarına cəmrələrin olduğu dövrdə, yəni köhnə ildə dönürlər.

***Asəf ORUCOV***
***tarix üzrə fəlsəfə doktoru, dosent***




## Ümumtəhsil məktəblərinin I-IV sinif şagirdləri arasında mantu sınağı başa çatıb

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən əvvəllər vərəmli xəstələrin qeydə alındığı yaşayış məntəqələrinin tam orta məktəblərində aşkarlanmış ilkin vərəm intoksikasiyalı uşaqları vaxtında müayinə və müalicəyə cəlb etmək üçün bu il fevral ayının 2-dən I-IV sinif şagirdləri arasında mantu sınağı aparılıb. Bunun üçün əvvəlcədən zəruri təşkilati tədbirlər həyata keçirilib, mantu sınağına cəlb edilən məktəblərdə şagirdlərin siyahıları tərtib olunub, ərazi prinsipi üzrə yaradılmış bir həkim və iki tibb işçisindən ibarət xüsusi briqadalar bu mühüm profilaktik tədbiri nəzərdə tutulan vaxtda başa çatdırıblar.

Naxçıvan şəhərində 335 şagirddən 321-i sınağa cəlb edilib. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim və vaksinatorları tərəfindən icra olunan mantu sınağında 297 şagirddə mənfi, 3 şübhəli, 19 müsbət, 2 hiperergik reaksiya aşkar edilib.

Seçmə üsulla müəyyən edilən rayon ümumtəhsil məktəblərində isə mantu sınaqları ərazi prinsipi üzrə aparılıb. Rayon mərkəzi xəstəxanaları, kənd səhiyyə müəssisələri, məktəb tibb məntəqələrinin həkim və tibb işçiləri tuberkulin diaqnostikasında bu zəruri mərhələni nəzərdə tutulan vaxtda başa vurublar. 4631 şagird kontingentindən 4245-i sınağa cəlb olunub, onlarda 3609 mənfi, 412 şübhəli, 198 müsbət, 26 hiperergik reaksiya aşkar edilib.

Sınağın nəticələri 72 saat keçdikdən sonra qiymətləndirilib və bu haqda Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə, Ağciyər Xəstəlikləri Dispanserinə məlumat verilib. Nəticələr qiymətləndirilərkən müsbət və hiperergik reaksiyalı uşaqların dərin ftiziatr müayinəsinə cəlb olunmaları üçün zəruri tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 161